M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası


# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 06 (761) | 15 fevral 2014-cü il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# VARİSLİK HAQQI, FƏDAKARLIQ YOLU

## ASİF RÜSTƏMLİ VƏ ONUN «CƏFƏR CABBARLI: HƏYATI VƏ MÜHİTİ» ƏSƏRİ

***Mənim müşahidələrimə görə, Asif Rüstəmli Azərbaycan ədəbiyyatşünaslığının çox tanınmış, zəhmətkeş, hətta mən deyərdim, fədakar nümayəndələrindən biridir. O, iyirmi ildir ki, Azərbaycan arxivlərində, kitabxanalarında, muzeylərində naməlum qatları üzə çıxarmaq üçün ardıcıl iş aparır. Etiraf edək ki, son vaxtlarda bizim muzeylərimizdə, arxivlərimizdə tədqiqat üçün çalışan adamlarımız azlıq təşkil edir. İşimin çoxluğuna baxmayaraq, arxivlərə gedirəm, amma arxivlərdəki oturacaqları çox vaxt boş görürəm. Ədəbiyyatın söykəndiyi mənbələr olmalıdır. Ədəbiyyat haqqında elm mütləq bədii ədəbiyyata söykənməlidir. Ədəbiyyatşünaslıq ədəbiyyat haqqında elm deməkdir. Alim dövrü mətbuat materialına, arxiv materialına istinad etməlidir. Bunların hamısı bir yerdə olsa, qalacaq bir əsər yaranır. Birincisi, A.Rüstəmli istinad elədiyi şəxsiyyətin bədii irsinə dərindən bələddir. İkincisi isə dövrü mətbuat materiallarından, həm də arxivdən istifadə edərək C.Cabbarlının bizə məlum olmayan dram əsərini, şeirlərini, publisistik nümunələrini toplayıb üzə çıxarmışdır. C.Cabbarlının nəsrini tamamlamış, bütövləşdirmişdir. Mən bunu Azərbaycan ədəbiyyatşünaslıq elmi qarşısında A.Rüstəmlinin böyük xidməti hesab edirəm. Hər hansı doktorluq işi ilə üç-beş yeni sənəd, iki-üç məktub, xırda bir bədii nümunə tapılsa, biz onda deyirik: bu əsərin elmi dövriyyəyə gətirdiyi xeyli elmi yeniliklər var. Mən deyərdim ki, bu, başdan-ayağa yenilikdir. Bu, A.Rüstəmlinin yazdığı əsər - «Cəfər Cabbarlı: həyatı və mühiti» əsəri C.Cabbarlıya yüksək münasibət, hörmət ifadə etməklə yanaşı, tamamilə yeni epoxanın C.Cabbarlısını müstəqil Azərbaycanın ədəbiyyatşünaslığına təqdim etməyi bacarmışdır. Və Azərbaycan ədəbiyyatşünaslıq elmi bu əsərlə çox zənginləşmişdir. Asifin özünün - ədəbiyyatşünaslığa gəlməyi layiqli və ləyaqətli elmlər doktorunun cərgəmizə daxil olması deməkdir. Mən Asifi təbrik edirəm. Bizim ədəbiyyatşünaslıq elminin təəssübünü çəkənlərin, elmə böyük həvəslə gələnlərin hamısını təbrik edirəm. Çox təəssüf edirəm ki, - bu da bir prosesdir, bunun da hər cürəsi olmalıdır - müdafiə edənlərin heç də hamısının işi bu əsər - Asif Rüstəmlinin «Cəfər Cabbarlı: həyatı və mühiti» kimi təqdim olunmur. ...Belə bir əsər yazmaq üçün on illərlə vaxt lazımdır. Və o üzdən A.Rüstəmli səylə, yorulmadan, fədakarlıqla çalışmış, belə bir sanballı əsəri meydana qoymuşdur. Əsər Bakıda, Türkiyədə çap olunmuşdur. Beləliklə, o, C.Cabbarlını yeni epoxada, daha geniş dairədə, daha geniş miqyasda tanıtmaq imkanı qazanmışdır. C.Cabbarlının xüsusən Müsavatla əlaqələri, həbsi, məktubları... ümumiyyətlə, bizim bu barədə çoxlarımızın məlumatı yox idi. Gəlin, boynumuza alaq. Müstəqillik dövründə oxucu bilər, sovet dövründə bu barədə bir kəlmə də yazılmamışdı, yazılmazdı da. Müstəqillik dövründə yazıldı ki, həbs olunub... Amma bütün təfərrüat, sənədlər, məktublar ortaya qoyulmadı. Bədii əsərləri ortaya qoydu, tərcümeyi-hal faktlarını dəyişdirdi, dəqiqləşdirdi və yeniləşdirdi. Və nəhayət, bu kimi bir çox faktlar A.Rüstəmlinin xidməti sayəsində aşkarlandı. Bu əsəri ədəbiyyatşünaslıq elmimizdə hadisə adlandırıram, yüksək qiymətləndirirəm.***

(Naxçıvan, 19.11.2011)

***İsa HƏBİBBƏYLİ, akademik***